**«Beynəlxalq tələblərə cavab verən ədalətli və şəffaf seçki**

**prosesi vasitəsilə ölkədə demokratiyanın gücləndirilməsi»**

AÇIQ CƏMİYYƏT
İNSTİTUTU – YARDIM FONDUNUN
MALİYYƏ
YARDIMI İLƏ

# AVROPA İTTİFAQI – AZƏRBAYCAN FƏALİYYƏT PLANI

Prioritet sahə – 2

Müəllif: Məhərrəm Zülfüqarlı - AAMİK üzvü,
tarix elmləri namizədi

Mündəricat:


- **Giriş**
- **Xülasə – annotasiya**
- **I. PROBLEMİN MƏNŞƏYİ**
- **II. PROBLEMİN ANALİZİ**
- **III. SİYASƏTİN MÜXTƏLİF VARİANTLARI**
- **IV. NƏTİCƏ VƏ TÖVSİYYƏLƏR**
- **MƏNBƏLƏR**
- **BİBLOQRAFİYA**
- **ƏLAVƏLƏR**


## Giriş

Azərbaycanda demokratik və ədalətli seçkilərin keçirlməsi sahəsində hələ də ciddi problemlə mövcuddur. Bu problemin həll olunması ölkədə vətəndaş cəmiyyəti quruculuğuna, qanunların aliliyinin təmin olunmasına ciddi maneələr törədir. Problemin həllində siyasi partiyalar, qeyri hökümət təşkilatlarının və ictimaiyyətin digər nümayəndələri ilə yanaşı Avropa Şurası, ATƏT – in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosu və Avropanın Venetsiya Komissiyası, Beynəlxalq Seçki Fondu (İFES), ABŞ Milli Demokratiya və Respublikaçılar İnstitutları, ölkədə akreditə olunmuş bir sıra ölkələrin səfirliklərin nümayəndələri Azərbaycana yaxından yardım edirlər. Son illər problemin həlli sahəsində müəyyən müsbət irəlləyişlərə nail olunmasına baxmayaraq bütövlükdə problemi həll olunmamışdır.Problemin həll olunmamasının əsas səbəbi fikrimizcə iqtidar – müxalifət münasibətlərinin konstruktivlikdən uzaq olması, qanunların aliliyinə nail olunmamsı, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə tam əməl edilməməsidir. Hazırda ictimai rəydə problemin həllinə mane olan əsas amil kimi «seçki komissiyalarının inhisarda olması,poritet əsaslarla formalaşmaması» fikri geniş yayılmışdır. Lakin təhlilər göstərir ki, hazırki dövrdə hətta seçki komissiyaları paritet əsaslarla formalaşdırılsa belə demokratik seçkilərin keçirilməsi sahəsində problemləri yenə də tam həll etmək mümkün olmaycaqdır. Siyasi məruzənin əsas məqsədi ölkədəki real vəziyyəti təhlil etmək və problemin həlli üçün konstruktiv təkliflər verməklə problemin həllinə kömək göstərməkdir. Siyasi məruzənin əsas istiqamətləri və ya «yol xəritəsi» problemin mənşəyini üzə çıxarmaq, təhlil etmək, bu sahədə olan siyasi alternativləri araşdırmaq və problemin həlli üçün tövsiyyələr verməkdən ibarətdir.

## Xülasə - annotasiya


Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra qərbə inteqrasiya yolunda və vətəndaş cəmiyyəti quruculuğunda müəyyən irəlləyişlər əldə etmişdir. Azərbaycanın Avropa Şurasına üzv olması, Avropa İttifaqı il Fəaliyyət Planı imzalaması, bir sıra beynəlxalq konvensiyalara, o cümlədən Avropa İnsan Haqları Konvensiyasına, azad bazar iqtisadiyyatına keçilməsi, təhsil sahəsində qərb ölkələri ilə əlaqələri genişləndirilməsi və s. buna misal ola bilər.

2006-cı ilin payızında Respublikada beynəlxalq təşkilatların dəstəyi ilə uşaq parlamentinə demokratik seçkilər keçirilmiş və ilk dəfə olaraq uşaq parlamenti formalaşdırılmışdır.

Lakin bütün bunlara baxmayaraq ölkənin demokratikləşməsi, vətəndaş cəmiyyəti quruculuğu, insan haqlarının qorunması və demokratik seçkilərin keçirilməsi sahəsində hələ də ciddi problemlər qalmaqdadır.

Cənubi Qafqaz Respublikaları, o cümlədən Azərbaycan Avropa İttifaqı ilə yaxın qonşuluq statusu əldə etdikdən sonra əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaranmışdır. Avropa İttifaqının Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Simnebin 2006 – cı ilin iyul ayında Azərbaycana səfəri zamanı əməkdaşlığın genişləndirilməsi ilə bağlı razılıq əldə olunmuş və Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında 14 noyabr 2006 - cı il Fəaliyyət Planı imzalanmışdır.

**«AVROPA İTTİFAQI – AZƏRBAYCAN FƏALİYYƏT PLANI»nda** 10 prioritet sahə müəyyən edilmişdir ki, bunlardan da 2- cisi «Beynəlxalq tələblərə cavab verən ədalətli və şəffaf seçki prosesinin də vasitəsilə ölkədə demokratiyanın gücləndirilməsi» sahəsidir. Azərbaycan Respublikasının Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdən biri ölkədə demokratik, şəffaf, azad və ədalətli seçkilər keçirilməsindən ibarətdir. Bu öhdəliyin həyatia keçirilməsi sahəsində müəyyən işlər görülməsinə baxmayaraq, demokratik seçkilər sahəsində ciddi problemlər hələ də qalmaqdadır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, yəni 1991 – ci ilin 18 oktyabrdan bu günə kimi müxtəlif qurumlara 9 seçki keçirilmişdir. Bu seçkilərin tarixi xronologiyası aşağıdakı kimidir:

- Prezident seçkiləri - 1992, 1993, 1998, 2003- cü illər;
- Milli Məclisə seçkilər – 1995, 2000, 2005 – ci illər;
- Bələdiyyələrə seçkilər – 1999, 2004

Xronologiyadan göründüyü kimi 9 seçkidən 5- i Azərbaycan Respublikası Avropa Şurasına daxil olmamışdan əvvəl keçirilmişdir. Bu seçkilərin gedişində yol verilmiş kobud qanun pozuntuları, total saxtakarlıqla yanaşı hətta Azərbaycan Respublikası Konstitusiyasının bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı müəddaları da kobud şəkildə pozulmuşdur. Konstitusiyada bələdiyyə seçkilərinin Əsas Qanun qüvvəyə minəndən 2 il sonra, yəni 1997 – ci ildə keçirilməsi nəzərdə tutulsa da, buna əməl olunmamışdır. Yalnız Avropa Şurasının tələbi ilə nəhayət 1999 – cu ildə bələdiyyə seçkiləri keçirilmişdir.

Azərbaycan Avropa Şurasına üzv qəbul olunduqdan sonra demokratik seçkilər üçün mühütin yaradılması istiqamətində müəyyən addımlar atılmışdır. Məsələn, 2003 – ci ildə keçirilmiş son prezident seçkilərində ilk dəfə olaraq şəffaf seçki qutularından istifadə edilmiş, İFES təşkilatının vasitəçiliyi və Almaniya, Niderland, ABŞ və Böyk Britaniya dövlətlərinin köməyi ilə nömrəli plastik kilidli 7500 ədəd daşınmayan, 4950 ədəd daşınan şəffaf seçki qutusu hazırlanıb ölkəyə gətirilmişdi. 2005 – ci il parlament seçkilərində isə səsverənlərin barmağına mürəkkəb vurulması praktikasından istifadə olunmuşdur. Lakin bütün bunlara baxmayraq əvvəlki seçkilərdə olduğunu kimi yenə də nəticələrin total saxtalaşdırılmasının qarşısını almaq mümkün olmamışdır.

Problemin mənşəyini araşdırdıqda ölkədə demokratik seçkilərin keçirilməsinə bir sıra amillərin mənfi təsir göstərdiyini üzə çıxarmaq mümkündür. Fikrimizcə bu amillər aşağıdakılardır:

- Azərbaycanın poskommunist, possovet ölkəsi olması və vətəndaşların, xüsusilə də məmurların düşüncələrində keçmiş totalitar rejimin qalıqlarının hələ də qalması;
- 20 ilə yaxın davam etməkdə olan Dağlıq Qarabağ problemi ilə bağlı Ermənistanla müharibə vəziyyətinin aradan qaldırılmaması;
- Ölkədə işsizlik probeminin həll olunmaması, işləyən əhalinin əksəriyyətinin əmək haqqının minumum yaşayış təlabatını ödəməməsi, yoxsulluq həddinin yüksək olması;
- Beynəlxalq təşkilatların və qərb ölkələrinin müxtəlif məsələlərə ikili standartla yanaşması, müxtəlif qanun poztularına, o cümlədən seçkilərin saxtalaşdırılmasına göz yumulması və s.

Problemin həlli üçün onun səbəblərini aşakara çıxarmaq və həllinə yaxından kömək göstərən təkliflər hazırlayıb müyvafiq qurumlara təqdim etmək zəruridir.

## I. PROBLEMİN MƏNŞƏYİ

Azərbaycanda demokratik seçkilərin keçirilməsi sahəsində mövcud olan problemin mənşəyinin araşdırdıqda birinci növbədə insanların şüurunda nisbi müstəqillik əsasında keçmiş totalitar sisteminin qalıqlarının qalması xüsusi qeyd olunmalıdır. Dövlət məmurlarının öz

səlahiyyətlərindən sui-istifadə edərək seçki komissiyalarının fəaliyyətinə qeyri qanuni müdaxilələr etməsi və seçki saxtakarlığının bilavasitə həmin şəxslərin göstərişi ilə həyata keçirildiyni nəzərə alsaq problemin mənşəyi barədə aydın təsəvvürə malik ola bilərik.

Bütün postkommunist respublikalarında olduğu kimi Azərbaycanda da sovet hakimiyyəti illərində demokratik seçkilər keçirmək mümkün olmamış, ali və yerli sovetlərə keçirilən seçkilər total surətdə saxtalaşdırılmışdır.

Bir cəhət də maraqlıdır ki, sovet tarixşünaslığında kommunistlərlə biərəflərin blokuna «verilmiş» səslər göstərilsə də, yerdə qalan 0, 2 və ya 0, 6 % səslərin kimlərə verilməsi haqda heç bir məlumat verilmir. Onda belə bir sual ortaya çıxa bilər ki, kommunistlərlə bitərəflərin blokuna seçicilərin 100 % səs «verdiyini» yazmaq imkanı olduğu halda, nəyə görə sovet hakimiyyəti illərində 0, 2, və 0, 6 % kimi kiçik rəqəmlər daim saxlanılıb . Fikrimizcə bu kiçik rəqəmlər seçkilərə müəyyən «demokratik» don geydirmək məqsədiə saxlanılırdı. Çünki bütün seçkilərdə seçicilər 100 % səsi kommunistlərlə bitərəflərin blokuna versəydilər bu totalitarizmin və ya mütləq monarxizmin təsdiqi ola bilərdi. Onda bu cür faktlar burjua siyasətçiləri üçün göydəndüşmə olardı və onların sovet quruluşu haqqında dedikləri tam təsdiqlənərdi. Məhz buna görə sovet rəhbərləri 100 % - lik qələbədən danışmamağa üstünlük verirdilər.

Yuxarıdakı faktlarla müasir dövrdə Azərbaycan Respublikasında keçirilmiş seçkiləri müqayisə etsək kommunist rejimində olduğu kimi seçki komissiyalarının iqtidarın inhisarında olması, yuxarıların göstərişi ilə istənilən namizədin xeyrinə nəticələrin saxtalaşdırılması, müşahidəçilərin qanun pozğunluqları ilə bağlı etirazlarına məhəl qoyulmaması, saxta seçki protokollarına imza atmayan komissiya üzvlərinə qarşı təziyqlər edilməsi, onların hətta qeyri – qanuni şəkildə həbs edilməsi və s. halların hələ də qaldığının şahidi olarıq.

## II. PROBLEMİN ANALİZİ

Problemi dərindən təhlili göstərir ki, ölkədə demokratik seçkilər keçirməsi sahəsində ciddi maneələr var. Problemin həllinə mane olan ən başlıca amil ölkə rəhbərliyinin mövcud çatışmazlıqları inkar etməsi, yerli və beynəlxalq müşahidəçilərin iradlarını qərəzli adlandırması və ölkədə keçirilən seçkilərin tam demokratik, ədalətli olduğunu iddia etməsidir. Problemin təhlili göstərir ki, ölkədə demokratik seçkilərə nail olmaq üçün aşağıdakı çatışmazlıqların aradan qaldırılması zəruridir:

1. Azərbaycan iqtidarının real demokratik seçkilər keçirilməsini sözdə bəyan etməsinə baxmayaraq, işdə həyata keçirmək istəməməsi;
2. Seçicilərin öz hüquqlarını dərindən bilməməsi və öz səslərini qorumağı bacarmaması;
3. Demokratik seçkilərə mane olan yoxsulluğun, vətəndaşların iqtisadi aslılığının aradan qaldırılmaması;
4. Seçiki komissiyalarının iqtidarın inhisarında olması və seçkiyə qatılan digər qüvvələrin hüquqlarının nəzərə alınmaması.

Seçkilərin təhllili göstərir ki, Azərbaycanda keçirilmiş bütün seçkilərdə seçki saxtakarlığı çox geniş miqyas almışdır ki, bunun da əsas səbələrindən biri seçki komissiyalarında çoxluğun iqtidarın əlində olmasıdır. Seçkilərlə bağlı belə bir rəyin əsaslandırılması üçün ölkədə üzrə toplanmış faktların təlilinə ehtiyac var.

Seçkilərdə saxtakarlıqların bu və ya digər formalarından müxtəlif dövrlərdə bütün possovet məkanında, o cumlədən Azərbaycan Respublikasında da istifadə olunmuşdur.

Saxtakarlıqlar seçki kampaniyasının müxtəlif mərhələlərində həyata keçirilir.

Bu mərhələlər aşağıdakılardır:

- ***Seçki bülletenləri məntəqələrə paylanması mərhələsi.*** Bu mərhələdə seçki bülletenləri məntəqələrə nəzərdə tutulduğundan daha artıq sayda verilir və artıq verilmiş bülletenlər qeydə alınmır. Artıq bülletenlər seçki başlamamışdan «yuxarıların» göstərişinə uyğun

namizədin xeyrinə hesablanmaq üçün saxtakarlıqda iştirak edən komissiya üzvləri və ya icra hakimiyyəti işçiləri tərəfindən qanuna müvafiq qaydada hazırlanır;

- ***Seçki məntəqələrinin və seçki qutularının səsverməyə hazırlanması mərhələsi.*** Bu mərhələdə saxta bülletenlər ya seçki başlamamışdan müşahidəçilərə müəyyən təzyiq göstərməklə qutulara qabaqcadan doldurulur, ya əvvəldən təşkil olunmuş insanlar vasitəsilə seçki qutusuna salınır. Bu mərhələdə həmçinin sonradan əsas səsvermə qutusu ilə dəyişdirmək üçün saxta bülletenlərlə doldurulmuş etiyat səsvermə qutusu və ya səyyar səsvermə qutusu da hazırlanır;
- ***Səsvermənin gedişi mərhələsi.*** Bu mərhələdə qabaqcadan ələ alınmış insanlar tərəfindən hazır bülletenlərin qutulara salınması yolu ilə saxtalaşma həyata keçirilir. Bu mərhələdə «rus koruseli» üsulundan da istifadə olunur;
- ***Seçki məntəqələrinə gəlmək imkanı olmayan seçicilərin evlərinə səyyar qutuların aparılması və həmin şəxslərin səsverməsi zamanı.*** Çox zaman seçki komissiyasının iqtidarı təmsil edən üzvləri seçki məntəqələrinə gəlmək imkanı olmayan seçicilərin adından çoxdu sayda saxta ərizələr yazır və bundan saxtakarlığın həyata keçirilməsində istifadə edirlər;
- ***Qabaqcadan təşkil olunmuş bəzi seçicilərə ailə üzvlərinin əvəzinə səs verməsinə şərait yaradılması yolu ilə.*** Çox zaman bu cür şəxslər ailə üzvləri adı altında əsasən başqa şəxslərin yerinə səs verməklə saxtakarlıq prosesində iştirak edirlər;
- ***Müxtəlif namizədləri təmisil edən komissiya üzvlərinin qarşılıqlı razılaşması yolu ilə namizədlər üçün bərabər sayda bülletenlərin qutulara doldurulması yolu ilə; (1)***

Seçki Monitorinq Mərkəzi 2005-ci il parldament seçkilərində seçki komissiyalarının tərkibi və fəaliyyəti ilə bağlı aşağıdakı nöqsanları qeydə almışdır:

- 1 saylı Şərur-Sədərək seçki dairəsi üzrə 1 saylı MnSK sədri Tariyel Zamanov - Sədərək Aqro Sənaye Bankının müdiri, 2 saylı MnSK sədri Eynulla Hüseynov Sədərək rayon Mədəniyyət Şöbəsinin müdiri, 22 saylı MnSK sədri Kamran Nağıyev - Şərur rayon Torpaq Şöbəsinin müdiri, 23 saylı MnSK sədri Şakir Məmmədov - Düdəngə kənd icra nümayəndəsinin müavini vəzifələrində çalışıb.
- 4 saylı Naxçıvan seçki dairəsi üzrə 4 saylı MnSK sədri Nazim Bayramov- Hərbi Litseyin direktoru, 7 saylı MnSK sədri Elmira Qasımova Naxçıvan şəhər Təhsil Şöbəsinin müdiri, 16 saylı MnSK sədri Hüseyn Qurbanov-Sürücülər məktəbinin direktoru vəzifələrində çalışıb.
- 16 saylı Yasamal ikinci seçki dairəsi üzrə 1 saylı MnSK- nın sədri Həmid Haqveriyev – 24 saylı Mənzil-Kommunal İstismar Sahəsinin rəisi, 8 saylı MnSK- nın sədri Firəngiz Həsənova – 53 saylı orta məktəbin direktoru, 12 saylı MnSK- nın sədri Akif Hacıyev - 21 saylı Mənzil Kommunal İstimar Sahəsinin sədri, 14 saylı MnSK- nın sədri Hətəm Hətəmov - 10 saylı poliklinikanın baş həkimi vəzifələrində çalışıb.
- 17 saylı Yasamal üçüncü DSK-nın 14 saylı seçki məntəqəsinin katibi Səyavuş Şahmirov eyni zamanda Azərbaycan Dövlət Dram Teatrının direktor müavini vəzifəsində çalışır.
- 21 saylı Nəsimi birinci DSK-nın 6 saylı MnSK sədri Hacı İbrahimov 31 saylı Mənzil İstismar Sahəsinin (MİS) rəisidir.
- 29 saylı Səbail DSK-nın 5 saylı seçki məntəqəsinin sədri Aliyə Təhmasib eyni zamanda 132 saylı orta məktəbin direktorudur.
- 67 saylı Cəlilabad seçki dairəsinin 5 saylı seçki məntəqəsinin sədri Əfqan Musayev Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsinin müfəttişi, 7 saylı seçki məntəqəsinin sədri İlham Salmanov Ekoloji təchizat mərkəzinin direktoru, 9 saylı seçki məntəqəsinin sədri Əsgərağa Sadatov Uşaq Gənclər Məktəbinin direktoru vəzifələrində çalışıblar.
- 75 saylı Lənkəran-Masallı seçki dairəsi üzrə 3 saylı seçki məntəqəsinin sədri Mirəli Yaqubov Lənkəran şəhər təhcizat bazasının direktoru, 8 saylı seçki məntəqəsinin sədri Əlövsət Qurbanov «Üzümçülük» məktəbinin direktoru, 11 saylı seçki məntəqəsinin sədri İbadulla Azadov Ürgə kənd orta məktəbinin direktoru vəzifələrində çalışıblar.

- 76 saylı Lənkəran-Astara seçki dairəsi üzrə DSK sədri Məzahir Əliyev Lənkəran şəhər Dövlət Maşın Sınaq Stansiyasında direktori müavini, DSK- nın sədr müavini isə həmin idarənin direktorudur. Bu seçki dairəsinin 1 saylı seçki məntəqəsinin sədri Mübariz Rəfiyev Poçtampın müdiri, 2 saylı seçki məntəqəsinin sədri Maarif Heydərov isə Siyənar kənd orta məktəbinin direktoru vəzifələrində çalışıb.
- 113 saylı Şəki şəhər seçki dairəsi üzrə 10 saylı seçki məntəqəsinin sədri Rasim Həsənov İpək Səhmdar Cəmiyyətinin direktoru, 11 saylı seçki məntəqəsinin sədri Bəşarət Abbasov Şəki şəhər Sərbablar ərazisi üzrə icra hakimiyyətinin nümayəndəsi, 15 saylı seçki məntəqəsinin sədri Əhməd Əhmədov Şəki barama zavodunun direktoru vəzifələrində çalışıb.
- 115 saylı Şəki kənd ikinci seçki dairəsi üzrə 37 saylı seçki məntəqəsinin sədri Məmməd Nəsibov Şəki texniki inventarlaşdırmaidarəsinin rəisi, 39 saylı seçki məntəqəsinin sədri Əlyəsər Xasməmmədov Şəki rayon istehlak cəmiyyətinin sədri, 40 saylı seçki məntəqəsinin sədri Gülşən Həsənova 4 saylı orta məktəbin direktoru vəzifələrində çalışıb.
- 121 saylı Laçın DSK- nın 93 saylı seçki məntəqəsində MnSK üzvü Qasım Qasımov eyni zamanda Vağazin kənd icra nümayəndəsinin müavinidir və iki vəzifəni icra edir.
- Sentyabrın 2-də iş günü olmasına baxmayaraq, 89 saylı Göyçay-Ağdaş seçki dairəsinin 7, 8, 9, 11 və 13 saylı seçki məntəqələri bağlı olub;
- Sentyabrın 5-də 21 saylı Nəsimi birinci seçki dairəsinin 4, 5, 14, 15, 19, 20 saylı seçki məntəqələri saat 14.00-dan sonra fəaliyyət göstərib.
- 67 saylı Cəlilabad şəhər seçki dairəsinin 17 saylı MnSK-nın üzvü İman Zeynalovun verdiyi məlumata görə, həmin seçki dairəsinin 12, 13 və 17 saylı seçki məntəqələri sentyabrın 7-dək təşkil edilməyib, seçki məntəqəsinə lazım olan avadanlıqlar quraşdırılmayıb və seçicilərin tanış olması üçün seçici siyahıları asılmayıb.
- Oktyabrın 6- da 89 saylı Göyçay-Ağdaş seçki dairəsinin 5 və 9 saylı seçki məntəqələri bağlı olub.
- 82 saylı Ağcabədi seçki dairəsinin 9 və 10 saylı seçki məntəqələri oktyabr ayınadək fəaliyyət göstərməyib. Həmin seçki məntəqələrində seçicilərin tanış olmaları üçün seçici siyahıları asılmayıb vəseçki məntəqələri hər gün bağlı olur.
- 9 saylı Binəqədi ikinci seçki dairəsinin 1, 2, 3 və 4 saylı seçki məntəqələri sentyabr ayı ərzində nadir hallarda fəaliyyət göstərib.(2)

2005-ci il parlament seçkilərilərini 42 ölkədən 665 nəfər müşahidəçi müşahidə etmişlr.

Bundan başqa seçki günü MDB ölkələrindən 640 nəfər, Türkiyənin «Mərmərə Qrupu»ndan isə 82 nəfər müşahidəni həyata keçirib. Lakin bəzi beynəlxalq müşahidəçilərin ölkədə fəaliyyəti sahəsində əvvəlki seçkilərdə müşahidə olunmuş məhdudiyyətlər aradan qalxmamışdır. Belə ki, Xarici İşlər Nazirliyi (XİN) bir sıra nüfuzlu beynəlxalq QHT-lər və onların nümayəndələrinin akkreditə olunmasına maneələr yaradıb. Məsələn, Norveç Beynəlxalq Əlaqələr İnstiutunun (NUPİ) müşahidə etməklə bağlı müraciətinə XİN-in cavabı yubadılıb və nəticədə MSK qeydiyyat müddətinin başa çatdığını bildirərək NUPİ-nin təqdim etdiyi şəxsləri akkreditə etməyib. Bundan başqa Şərqi Avropa Demokratyia İnstitutunun direktoru İrena Lasota seçki ərəfəsində Azərbaycana gəlmək üçün viza əldə edə bilməyib. Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyi heç bir səbəb göstərmədən ona viza verməkdən imtina edib. MSK isə Human Rights Votç təşkilatının nümayəndəsi Matilda Boqnerə beynəlxalq müşahidəçi kimi akkreditasiya verməkdən imtina edib.

Seçki Monitorinq Mərkəzi Azərbaycan Respublikası Milli Məclisinə 6 noyabr 2005-ci ildə keçirilən seçkilərin monitorinqinin nəticələrinə dair yekun hesabatında ciddi qanun pozuntuları qeyd olunmuşdur. Bunların bir hissəsi aşağıdakılardır:

- 115 seçki dairəsindən 107-də namizədlərin sui-istifadə hallarını, 106 seçki dairəsində yerli icra hakimiyyətlərinin seçki prosesinə müdaxilələrini, 72 seçki dairəsində namizədlərin inzibati resurslardan istifadə hallarını və 92 seçki dairəsində namizədlərə bərabər şəraitin yaradılmaması hallarını qeydə alıb.
- Seçki günü 2 mindən artıq seçki məntəqəsindən daxil olmuş məlumatlara əsasən hər bir seçki məntəqəsində orta hesabla 60 nəfər olmaqla ölkə üzrə təxminən 120 min seçici öz adını seçici

siyahısında tapa bilmədiyi üçün səsvermədə iştirak edə bilməyib. Eyni zamanda ölkə üzrə 115 seçki dairəsinin 44 faizində seçici siyahıları «pis», 38 faiz faizində isə «çox pis»tərtib olunub.
- Seçki günü seçicilərin iradəsinə təzyiq hallarını ölkə üzrə 1701 seçki məntəqəsində qeydə alınıb. Eyni zamanda heç bir sənəd təqdim etmədən seçicilərin seçki bülleteni alaraq səsvermədə iştirak halları 1611 seçki məntəqəsində müşahidə olunub. Səverməyə xüsusi qrupların gətirilməsi 761 seçki məntəqəsində, namizədlərin xeyrinə təbliğat isə 1606 seçki məntəqəsində müşahidə olunub.
- 325 seçki məntəqəsində gizliliyin pozulmasını, 821 seçki məntəqəsində başqasının əvəzinə səsvermə və 840 seçki məntəqəsində seçki qutusuna saxta bülletenlərin atılmasını qeydə alınıb
- Seçki günü ölkə üzrə 1782 seçki məntəqəsində yerli icra hakimiyyəti və polisin səsverməyə müdaxilə halları qeydə alınıb.
-Səsvermə başa çatdıqdan sonra səslərin sayılması zamanı daha ciddi qanun pozuntuları qeydə alınıb. SMM bu proses zamanı müşahidənin aparıldığı seçki məntəqələrinin 41 faizində səslərin sayılması və yekun protokolların tərtib olunmasında saxtakarlıqların edildiyini qeydə alıb. SMM-in müşahidəçiləri bu mərhələdə 909 seçki məntəqəsində aşkarlığın pozulmasını və 714 seçki məntəqəsində səsvermənin nəticələrinin elan olunmamasını qeydə alıblar.
- SMM seçkidən sonra 1870 seçki məntəqəsindən daxil olan yekun protokollarla MSK-nın «Seçkilər» İnformasyia Mərkəzinin Veb səhifəsində dərc olunmuş rəsmi məlumatların müqayisəsini aparıb. Müqayisənin nəticələrinə görə, Məntəqə Seçki Komissiyasının tərtib etdiyi 470 yekun protokolla MSK-nın rəsmi nəticələri arasında uyğunsuzluq və ziddiyyət mövcuddur. Bu fərqlər isə hər bir seçki məntəqəsi üzrə səsvermədə iştirak edənlərin ümumi sayı, etibarlı səslərin sayı və ilk yerləri tutan namizədlərə verilən səslərin sayında müəyyən olunub.

MSK-nın fəaliyyətindən (hərəkət və hərəkətsizliyindən) Apellyasiya Məhkəməsinə namizədlər və müşahidəçilər 50-dən artıq şikayət təqdim ediblər. Ancaq bu şikayətlərə Apellyasiya Məhkəməsində səthi baxılmış və şikayətlərin heç biri təmin olunmamışdır.

Təhlilər göstərir ki, ölkədə azad və ədalətli seçkilərin keçirilməsi üçün Azərbaycan Respublikası prezidentinin 27 may 2003 – cü il fərmanı il təsdiq edilmiş « Seçki Məcəlləsi»nə demokratik dəyişiklərin edilməsinə ciddi ehtiyac var.

Seçkilər Məcəlləsinin müzakirəsi zamanı müxalifət partiyalarının ən çox etiraz etdiyi məsələ «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası» adlanan dördüncü fəslin 24 – cü maddəsi idi.

Seçkilər Məcəlləsinin müzakirələrində siyasi partiyaların, qeyri hökümət təşkilatlarının və ictimaiyyətin digər nümayəndələri ilə yanaşı Avropa Şurasının, ATƏT – in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosu və Avropanın Venetsiya Komissiyasının, Beynəlxalq Seçki Fondunun (İFES), ABŞ Milli Demokratiya və Respublikaçılar İnstitutlarının, ölkədə akreditə olunmuş bir sıra ölkələrin səfirliklərinin nümayəndələri də iştirak etmişlər .

13 dekabr 2002-ci il tarixdə Norveç səfirliyinin qərərgahında ABŞ- ın, Almaniyanın, Norveçin və Türkiyənin Azərbaycandakı səfirləri iştirakı ilə toplantı keçirilmişdi.

ATƏT-in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosu və Avropa Şurasının Venetsiya Komissiyası Azərbaycanın Seçki Məcəlləsi ilə bağlı rəyini 14 dekabr 2002-ci tarixdə açıqlamışdı.

Rəydə Seçki komissiyaları ilə bağlı deyilir : «Bitərəf nümayəndələrin parlament çoxluğu və azlığı ilə razılaşdırılması prinsipi ərazi seçki komissiyalarına da aid edilməlidir. Bundan başqa parlament çoxluğu və parlament azlığı anlayışları aydınlaşdırılmalıdır. Komissiyaların bir siyasi qüvvənin nəzarətinə keçməsi yolverilməzdir, geniş siyasi spektrin etimadı ilə formalaşdırılmalıdır.»

Mərkəzi Seçki Komissiyasının iki üzvünün hakimiyyətdən seçilməsi rəydə müsbət qarşılanır, ancaq qeyd olunur ki, MSK – nın sədri, onun müavini və katiblər gizli səsvermə ilə seçilməlidir. Yerli komissiyalara verilən səlahiyyət və vəzifələrlə, eləcə də komissiya üzvlərinin təcrübəsi ilə bağlı da rəydə iradlar göstərilir: «Komissiya üzvlərinin namizədlərin qeydiyyatı, şikayətlərə baxılması və nəticələrin yekunlaşdırılması kimi irihəcmli vəzifələrin öhdəsindən gəlməsi üçün vaxt çatdırması mümkün deyil.»

Bundan başqa, məntəqə seçki komissiyaları üzvlərinin işə alışacaqları inanılmazdır.Onlar bu sahədə təcrübəsi olan adamlar arasından seçilməlidir. Dairə seçki komissiyaları, layihədə göstərildiyi kimi, səsverməyə 40 gün qalmış deyil, daha tez formalaşdırılmalıdır.

Seçki prosesinin şəffaf aparılması məsələsinə də rəydə xüsusi yer ayrılıb: «Protokolların hər bir seçki komissiyası instansiyasıda imzalanıb təsdiqlənmək şərti ilə maraqlı tərəflərə verilməsi proseduru ciddi xarakter daşımalı, layihədə bu dəqiq olaraq öz əksini tapmalıdır. Mərkəzi Seçki Komissiyası bütün məntəqələr üzrə nəticələri dərc etməlidir.»

Seçki siyahıları ilə bağlı problem də nüfuzlu Avropa təşkilatlarının diqqətindən yayınmayıb: «Seçki Məcəlləsi seçici siyahıları haqda yerli hakimiyyət orqanlarından alınan məlumatların dəqiqləşdirilməsi üçün dairə komissiyaları qarşısında konkret məsuliyyət qoymalıdır. Eyni zamanda, yerli orqanlara bu məlumatın verilməsi ilə bağlı konkret vaxt göstərilməlidir.»

Rəydə qeyd olunur ki, prezidentliyə namizədlərin topladıqları imzanın sayı və onun coğrafi əhatəsi ilə bağlı məhdudiyyətlər azaldılmalıdır.

ATƏT DTİHB-nin təşəbbüsü ilə 2002-ci il dekabrın 16-17-də dəyirmi masa keçirilmişdir. Tədbirdə 19 dekabr 2002-ci il tarixdə Secki Komissiyasi təşkili ilə bağlı aşağıdakı variantlar təklif olunmuşdu:

Variant 1. Bütün pillələrdən olan seçki komissiyaları eyni qayda və əsaslarla bütünlükdə iqtidar və müxalifət arasında paritet prinsip ilə formalaşdırılır. İqtidar və müxalifət bütün səviyyələrdən olan seçki komissiyalarının tərkibində bərabər təmsil olunur, o cümlədən dairə və məntəqə seçki komissiyalarının rəhbərliyində bərabər qaydada kvotaya malik olur.

Variant 2. Qarşılıqlı nəzarət mexanizmi əsasında seçki yarışında iştirak edən bütün tərəflər, o cümlədən bitərəf namizədlər üçün bərabər imkanların və ədalətliyin təmin olunması, bu məqsədlə seçkilərdə iştirak edən hər bir siyasi partiya, prezidentliyə, Milli Məclis üzvlüyünə namizədin bütün səviyyələrdə olan seçki komissiyalarında bərabər əsaslarla təmsil olunması, o cümlədən dairə və məntəqə seçki komissiyalarının tərkibində və rəhbərliyində (sədr, müavin, katib) bərabər qaydada kvotaya malik olması.) (3)

26 dekabr 2002-ci il tarixdə Müxalifətin Koordinasiya Mərkəzini təşkil etdiyi «Azad Seçki» forumu «Seçki Məcəlləsi» ilə bağlı bəyannamə qəbul etmişdir. Bəyannamədə də seçki komissiyalarının təşkili əsas məsələ kimi qeyd olunmuşdur.

ATƏT Bakı ofisinin təşəbbüsü ilə 2003 – cü il fevralın 26 – 27 – də elmi – praktik konfrans keçirilmişdir. Bundan başqa Seçkilər Məcəlləsinin müzakirəsi 2003 – cü ilin fevralında Strasburqda Azərbaycan Respublikası Prezident Aparatının nümayəndəsi ilə Avropa ekspertləri arasında da aparılmışdır.

15 oktyabr 2003-cü ildə keçirilən prezident seçkilərindən sonra ATƏT və Avropa Şurasının Beynəlxalq Müşahidə Missiyası Azərbaycan seçki qanunvericiliyini təkmilləşdirilməsi üzrə konkret təkliflər irəli sürüb. Həmin təkliflərə seçki komissiyalarının tərkibinin yeni prinsiplər əsasında formalaşdırılması, xaricdən maliyyələşən QHT-lərin seçkilərin monitorinqinə qadağanın götürülməsi, seçki hüquqlarının pozulmasına dair şikayətlərə baxılması prosedurlarının sadələşdirilməsi və digər məsələlər daxil idi.

2005-ci ilin aprel ayında Prezident Aparatı və Milli Məclisin nümayəndələri Seçki Məcəlləsinə dəyişikliklərə dair təkliflər paketini Avropa Şurası Venesiya Komissiyasının və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Bürosunun (DTİHB) ekspertlərinin müzakirəsinə təqdim etdilər. Eyni zamanda hakimiyyət seçki komissiyalarının formalaşdırılması prinsipinin dəyişdirilməsi məsələsinə baxılmayacağını əvvəlcədən bildirdi.

11 may 2005-ci il tarixdə Prezident «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsi» barədə sərəncam verdi. Sərancamda qeyd olunmuş 11 müddəa seçki təcrübəsinin aşağıdakı sahələrinin təkmilləşdirilməsinə müsbət təsir göstərmişdir:

- seçki ilə məşğul olan şəxslərin ixtisasının artırılması üçün təlim kurslarının keçirilməsi;
- icra hakimiyyət başçılarının seçki prosesinə qarışmaması üçün onların məsuliyyətinin artırılması;
- siyasi mənsubiyyətinə görə insanların təqib olunmasına son qoyulması;
- televiziya şirkətlərinə, mətbuat orqanlarının namizədlərin təbliğatı üçün şərait yaradılması;

- exit pollun keçirilməsi üçün normal şəraitin yaradılması və bu prosesə hər hansı bir müdaxilənin aradan qaldırılması;
- vətəndaşların sərbəst toplaşma azadlığının təmin edilməsi;
seçici siyahılarının dəqiqləşdirilməsində, seçici vəsiqələrinin vaxtında verilməsi işinin sürətləndirilməsi;
- müxtəlif siyasi qüvvələrin, beynəlxalq təşkilatların seçkilərlə bağlı əlaqələrinin yaradılması, dialoqun təşkili.

Bu sərəncamda yerli icra hakimiyyəti başçılarına və digər dövlət qurumları rəhbərlərinə xəbərdarlıq edilmişdir ki, onlar seçki prosesinə hər hansı şəkildə müdaxilə edərlərsə qanuna müvafiq olaraq cəzalandırılacaqlar. Məhz bu sərancamdan sonra əhali arasında Milli Məclisə seçkilərin demokratik keçiriləcəyinə inam artmış və namizədliyni irəli sürən şəxslərin sayı daha da çoxalmışdır.

Bu sərəncam seçkilərin demokratik və şəfəffaf keçirilməsinə müsbət təsir etsə də, «Seçki Məcəlləsi»nə bir sıra demokratik dəyişiklərin edilməməsi, xüsusilə də komissiyaların tərkibinin dəyişilməməsi, komissiya üzvlərinin çoxluğunun bir siyasi qüvvənin inhisarında qalması seçki saxtakarlığının aradan qaldırılmasına mənfi təsir göstərmişdir. Bundan başqa bir sıra dövlət qurumlarının sərəncamın müddəalarına əməl etməmələri də bəzi regionlarda seçki təcrübəsinin təkmilləşdirilməsinə mənfi təsir göstərmişdir. Azərbaycan Respublikası Prezidentin fəramanları ilə 6 noyabr 2005-ci il tarixli Milli Məclisə seçkilərdən sonra 11 may 2005-ci il tarixli sərancamın müddəalarına əməl etməyən Sabirabad, Suraxanı, Zaqatala rayonlarının icra hakimiyyəti başçılarının dəyişdirilməsi, Respublika Prokurorluğunun bir sıra komissiya sədrləri haqqında cinayət işləri qaldırması, MSK-nın seçki saxtakarlığına yol verilmiş DSK – larda nəticələrin ləğv etməsi sərancamın kağız üzərində qalmamasını, onun işlək bir sənəd olduğunu sübut edir.

28 iyun 2005-ci ildə parlamentdə «Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əlavə və dəyişikliklər haqqında» qanun qəbul olundu. Bu qanun prinsip etibarı ilə Seçki Məcəlləsində ciddi dəyişiklərə gətirib çıxarmadı. Məsələn, bu qanunun 58 bəndindən 27 bəndi sadəcə maliyyə ödəmələri kimi ***«minimum əmək haqqı»*** ifadəsinin ***«şərti maliyyə vahidi»*** ifadəsi ilə əvəz olunmasını nəzərdə tuturdu. Eyni zamanda Prezidentin 2005-ci il 11 may tarixli sərəncamında qeyd olunan exit poll və səslərin paralel hesablanması prosedurları Seçki Məcəlləsinə əlavə və dəyişikliklər haqqında qanunda öz əksini tapmamışdır. Təəssüf ki, yeni dəyişikliklər seçki hüquqlarının pozulmasına görə vətəndaşların prokurorluğa birbaşa müraciət hüquqlarını məhdudlaşdıraraq, bu hüququ seçki komissiyalarına aid etdi. Dəyişikliklər siyahılarda seçicilərin ünvanlarının göstərilməsinə də qadağalar müəyyən etdi.

Avropa Şurasının Venesiya Komissiyası və ATƏT-in DTİHB bu dəyişiklikləri belə qiymətləndirdilər ki, dəyişiklər ictimaiyyətin Azərbaycanın seçki qanunvericiliyinə və seçki təcrübəsinəinamının formalaşması üçün yetərli deyil. Qəbul olunmuş əlavələr 2004-cü il tövsiyyələrinin çox az bir hissəsini əks etdirir, nəzərə alınanlar isə «texniki xarakter daşıyır».
Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında» (25 oktaybr 2005 – ci il) sərancamı 6 noyabr 2005 – ci il tarixli Milli Məclisə seçkilərə 10 gün qalmış, yəni bir qədər gecikmiş verilməsinə baxmayaraq seçkilərin demokratikliynin təmin olunmasına aşağıdakı müsbət təsir göstərmişdir.
- uzun illər qeyri – hökümət təşkilatlarının seçkilərin qeyri-məhdud müşahidəsi sahəsində mövcud olan qadağanı ləğv edilməsinə;
- yerli və beynəlxalq ekspertlərin, siyasi və ictimai təşkilatların seçkilərin şəffaflığını təmin etmək üçün seçici barmaqlarına şəffaf mürəkkəbin vurulması ilə bağlı irəli sürdükləri təkliflərin qəbuluna;
- seçki komissiyalarına müxtəlif qanun pozuntuları ilə bağlı edilən şikayətlərə baxılması, namizədlərin seçki qabağı təşviqat zamanı yol verdikləri qanun pozğunluqlarının aradan qaldırılması mexanizmi təkmilləşdirilməsinə;
- seçici siyahısı ilə istənilən şəxsin tanış olmasına şəraitin yaradılmasına;
- Daxili İşlər Nazirliynin orqanları tərəfindən vətəndaşlara şəxsiyyət vəsiqələrinin verilməsi işlərinin sürətləndirilməsinə;

- Seçki komissiyalarının rabitə və texnika ilə təmin olunmasına, məntəq, dairə və mərkəzi seçki komissiyalarının yerləşdiyi binaların elektrik enerjismi ilə fasiləsiz təmin olunmasına;
-«Sərbəst toplaşmaq haqqında» Azərbaycan Respublikası qanunun həyata keçməsinə, namizədlərin müəyyən olunmuş yerlərdə kütləvi tədbirlərin keçirilməsinə;
- qanun pozuntularına yol vermiş şəxslərin məsuliyyətə cəlb olunmasında;
- «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsi haqqında» (11 may 2005-ci il) sərancamında nəzərdə tutlan tapşırıqların həyata keçirilməsi ilə bağlı hesabatların qısa müddətdə hazırlanmasına.

Sərəncamın təsiri ilə bir sıra problemlər öz həllini tapmasına baxmayraq, seçkilərin azad və ədalətli keçirilməsi üçün təklif olunan bir sıra müddəalar hələ də öz həllini gözləyir. Məsələn, qeyri – hökümət təşkilatlarının seçkiləri müşahidəsi sahəsində problemlər aradan qalxsa da, siyasi bloklar kimi ictimai seçki bloklarının da qeydiyyatdan keçməsi, seçki komissiyalarının tərkibində QHT- lərin də təmsil olunması haqqında irəli sürülən təkliflər öz həllini tapmamışdır.

Bu yaxınlarda Avropa Şurasının 2008 – ci il prezident seçkiləri üçün tələbləri açıqlanmışdır. Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında Azərbaycanın bu qurum qarşısnda götürdüyü öhdəlikləri yerinə yetirməsi məsələsinin müzakirə olunmuşdur. AŞ – nin siyasi məsələlər üzrə baş direktoru Jan – Lui Loran bildirb ki, «AŞ tammiqyaslı demokratiyaya nail olmaq üçün Azərbaycanla əməkdaşlığı davam etdirir. İlk növbədə Seçki Məcəlləsində islahatlar aparılmalıdır. Söhbət seçki komissiyalarının formalaşdırılması, səslərin sayılması prinsiplərinin, şikayətlərə baxılması prosedurunun təkmilləşdirilməsindən gedir. Seçkilər zamanı söz və fikir azadlığı, namizədlərin KİV – ə, televiziyaya bərabər buraxılması təmin edilməlidir. AŞ böhtana görə məsuliyyəti Seçki Məcəlləsindən çıxıarılmasında israr edir.»

## III. ALTERNATİVLƏRİN ANALİZİ

Azərbaycan Respublikasında demokratik seçkilərin keçirilməsinə nail olmaq üçün alternativ təkliflərin, bu baxımdan beynəlxalq təcrübənin mühüm əhəmiyyəti vardır. İnkişaf etmiş qərb ölkələri ABŞ, Böyük Britaniya, Fransa, Almaniya kimi ölkələrlə yanaşı keçmiş postkommunist ölkələrinin də seçki təcrübəsinin Azərbaycan vətəndaşları arasında təbliğinə ciddi ehtiyac var.

ABŞ-da seçkilərin keçirilməsi üçün mərkəzi orqan yoxdur. Federal seçki komissiyası seçkilərin keçirilməsi ilə məşğul olmur. Bu komissiya əsasən Konqres tərəfindən qəbul olunmuş federal seçkilər haqqında qanunlara riayət edilməsinə nəzarət edir. Prezident və vitse – prezident seçkiləri üzrə səsləri Vaşiqtondakı qulluqçular hesablayırlar. Bu hesablama əslində elə bir əhəmiyyət daşımır. Çünki seçkilərin taleyini səslərin yerlərdə hesablanması həll edir. Konqresə seçkilərdə qalibləri hər bir ştatda seçki dairələri müəyyən edir. Ayrı – ayrı ştatda bunu ya komissiyalar, ya da səlahiyyətli şəxslər müəyyən edirlər. Bütövlükdə ştatlarda seçkilərin təşkili ilə ya qərargah katibi, ya da namizədləri irəli sürmüş partiyaların nümayəndələrindən təşkil olunmuş seçki komissiyaları məşğul olur.

Böyük Britaniyada mərkəzdə və yerlərdə seçkilərin keçirilməsi üçün xüsusi komissiyalar yaradılmır. Seçkilərə ölkə miqyasında Daxili işlər nazirliyi, yerlərdə isə seçkilər üzrə məmurlar rəhbərlik edirlər. Bu vəzifələr ya qraflıqların şeriflərinə (ictimai asayişə görə məsuliyyət daşıyan vəzifəli şəxslərə), ya da yerli şuraların sədrlərinə həvalə olunur.Onlara bələdiyyə məmurları və ictimai əsaslarla işləyən partiya fəalları kömək edirlər.

Ukraynada seçkilərə Ali Rada tərəfindən yaradılan və demək olar ki, ictimai əsaslarla fəaliyyət göstərən ( sədr,onun müavinləri və komissiyanın katibi istisna təşkil edir) mərkəzi seçki komissiyası, ərazi, dairə və məntəqə seçki komissiyaları rəhbərlik edir. Mərkəzi seçki komissiyası istisna olmaqla digər seçki komissiyaları yerli şuralar tərəfindən yaradılır. Ukraynada baş vermiş «napıncı inqilab»dan sonra Konsitutsiyaya edilmiş dəyişiklərə əsasən ölkənin prezidentli respublikadan parlamentli respublikaya çevrilməsi demokratik seçkilər üçün münbit şərait yaratmışdır. Məhz bunun nəticəsində prezident seçkilərində məğlub olmuş Yanukoviç və onun tərəfdarları parlament seçkilərində böyük uğurlar qazanmışdır. (4)

Litvada dairə seçki komissiyaları aşağıdakı şəkildə formalaşdırılır:

1. bir nümayəndə ədliyyə naziri tərəfindən təklif olunur;
2. bir nümayəndə Litva hüquqşünaslar Cəmiyyəti tərəfindən təklif olunur.
3. bir nümayəndə mer tərəfindən təklif olunur;
4. nümayəndələr Seymdə mandat almış partiyalar tərəfindən təklif olunurlar;
5. nümayəndələr axırıncı seçkilərində şurada 3 mandantdan az olmayaraq mandat almış partiyalar tərəfindən təklif olunur; (5)

Azərbaycanın hazırki durumuna oxşar vəziyyət İspaniyada XX əsrin 70 – ci illərində mövcud olmuşdur. 1975 – ci ilin noyabrında F. Frankonun ölümündən sonra kral I Xuan Karlos 1976 – cı ilin iyununda demokratikləşmə prosesinə başlamaq üçün A. Suaresi hökümətin başçısı təyin etdi. Onun rəhbərliyi ilə siyasi islahatlar həyata keçirilməyə başlandı. Bütün partiyalar qeyri leqal fəaliyyətdən leqal fəaliyyətə keçdilər. Azad həmkarlar təşkilatı və onların tətil hüququ tanındı, siyasi aministiya elan olundu, yeni seçki qanunu qüvvəyə mindi. 15 iyun 1977 – ci ildə vətəndaş müharibəsində sonra ilk dəfə olaraq azad seçkilər keçirildi. Seçkilərdə A. Suares qalib gəldi, lakin oun yeni partiyası olan Demokratik Mərkəz İttifaqı parlamentdə yerlərin yalnız 47 % - ni qazandı.

Seçkilər keçirilən vaxt İspaniya iqtisadi böhran keçirirdi. İnflyasiyanın və işsizliyin artması ödəmə balansını pozurdu. Suares hökümətinin antiinflyasiya tədbirləri və xarici ticarətin liberallaşması proqramı əmək haqqının artmasının məhdudlaşdırılmasını nəzərdə tuturdu. Həmkarlar və fəhlə hərəkatı ilə konfrantasiyanın əvəzinə, Suares gəlirlər siyasətində konsensusa nail olmaq yolunu seçdi. İşgüzar dairələri və fəhlələri təmsil edən aparıcı təşkilatlar 1977 – ci ilin yayında ümumi mövqe hazırlamaq üçün məsləhətləşmələrə dəvət olundular. Lakin əmək və kapital arasında olan ziddiyyətlər ucbatından bu cəhd müvəffəqiyyətsizliyə uğradı. Bu prosesdə konkret dörd müxtəlif siyasi cərəyan çıxış edirdi ki, onların da heç biri birinci olaraq güzəştdə getmək istəmirdi

Belə olan halda, Suares öz strategiyasını dəyişdi. O, sosial qruplarla deyil, siyasi partiyaların liderləri ilə saziş əldə olunmasına cəhd etdi. 1977 – ci ilin oktyabrında əldə olunmuş yekun saziş, Monkloa paktı imzalandı. Siyasi partiya liderləri ilə anlaşma əldə etmək, onların təmsil etdikləri qruplarla anlaşma əldə etməkdən asan oldu. Bundan başqa, bu sazişin imzalanmasına mane olan radikal sol partiyaların danışıqlardan kənarlaşdırılması sazişin imzalanmasında müsbət rol oynadı.

Monkloa paktı əmək haqqının artımına məhdudiyyətlər qoymaqla yanaşı, pul – kredit və büdcə – maliyə siyasəti proqramı, struktur islahatların da həyata keçirilməsini nəzərdə tuturdu. Bu paktda bazar iqtisadiyyatının çevikliyinin artırılmasına, daha mütərəqqi vergi siyasətinə keçirilməsinə, dövlət müəssisələrinin mərkəzdən asılılığına son qoyulmasına və daha səmərəli idarəçiliyə əsaslanan «yeni əsasda əmək münasibətlərinin qurulması»nı planlaşdırılmışdı. Ən əsası, ölkədə həyata keçirilən dəyişikliklər zamanı fəhlələrə müəyyən konpensasiyalar, tədricən bütün işsizlərin sığortası və bəzi məhsulların qiymətlərinə nəzarət nəzərdə tutulmuşdur. Nəzərə alınmalıdır ki, əmək münaqişələrinin gərginlik səviyyəsi pakt imzalanan zaman İspaniyada digər Avropa ölkələri ilə müqayisədə ən yüksək idi. Bu cür güzəştlər verməklə zəhmətkeşlərlə saziş əldə olunması böyük nailiyyət idi. Monkloa paktında nəzərdə tutulanların hamısı, xüsusilə əmək münasibətləri və dövlət müəssiələri ilə bağlı islahatlar yerinə yetirilməsə də əsas məsələlər yerinə yetirildi. Bunun nəticəsində 1977 – ci ildən sonra qiymətlərin və əmək haqlarının artması kəskin surətdə azaldı, ödəniş balansındakı cari saldonun çatışmazlığı ləğv olundu.

Fikrimizcə Azərbaycanda da demokratik seçkilərin keçirilməsi və digər problemlərin həlli üçün iqtidarla müxalifət arasında Monkloa paktına bənzər sazişin izalanmasına ehtiyac var.(6)

Bundan başqa prezidentin səlahiyyətlərinin azaldılması və parlamentin səlahiyyətlərinin artırılması da demokratik seçkilər üçün münbit şəraitin yaradılmasına kömək göstərə bilər.

Azərbaycan Respublikasında demokratik seçki mühiti yaradılması, inhisardan azad seçki komissiyalarının yaradılması, iqtidar müxalifət münasibətlərinin konstruktiv məcraya

yönəldilməsində, onlar arasında dialoqun baş tutmasında beynəlxalq təcrübə ilə yanaşı müstəqil ictimai qurumları irəli sürdüyü alternativ təkliflərin, irləi sürülmüş təşəbbüslərin də mühüm əhəmiyyəti vardır. Belə alternativ təkliflərə misal oldaraq aşağıdakıları göstərmək olar:

Azərbaycanda keçirilən seçkilərdən sonra iqtidar – müxalifət dialoqundan çox danışılmasına baxmayraq bu məsələdə ciddi irəlləyişlər əldə olunmamışdır. Lakin paytaxda mövcud durumun əksinə olaraq regionlarda bu sahədə müəyyən addımlar atılmışdır ki, bu cür altenrativlərin ölkə üzrə geniş yayılmasına ehtiyc var. Buna misal oluraq 2004 – cü il bələdiyyə seçkiləri ərəfəsi Şəkidə yaradılmış «Bütöv Şəki bloku»nu göstərmək olar.

«Bütöv Şəki bloku»nu digər bloklardan fərqləndirən əsas cəhət Azərbaycan siyasi həyatında ilk dəfə olaraq iqtidar və müxalifəti təmsil edən 17 namizədin bir blokda birləşməsindən ibarətdir. Fikrimizcə «Bütöv Şəki bloku» mərkəzdə dialoqa gələ bilməyən siyasilərə bir nümunə ola bilər. Bu blokun yaranması göstərir ki, yerlərdə mərkəzə nisbətən siyasi partiyalar arasında münasibətlər daha səmimi, daha konstruktivdir. «Bütöv Şəki bloku»nun üzvləri siyasi mənsubiyyətindən asılı olmayaraq seçkilərdə axıra qədər birgə iştirak etmiş və müsbət nəticəyə nail olmuşlar.

Fikrimizcə, Respublikanın digər regionlarında da Şəki nümunəsindən istifadə olunması müsbət nəticələr verər və bu cür bloklar həm də mərkəzdə iqtidar – müxalifət dialoqunun başlanması üçün stimul da ola bilər. (7)

2005 – ci il parldament seçkilər ərəfəsi Azərbaycan Milli QHT – lərinin MSK – nın təşkili ilə bağlı irəli sürdüyü təkliflər də alternativ kimi maraq doğurur:

I Variant.

MSK-nın tərkibi 22 nəfərlən ibarət olsun. Seçki komisiyasının tərkibində 16 yer Milli Məclisə son seçkilərdə ölkə üzrə seçicilərin 1 faizdən çoxunun səsini toplamış siyasi partiyalar (siyasi partiyaların blokları) tərəfindən təyin olunsun. MSK-nın tərkibində 6 yer QHT-lər tərəfindən təyin olunsun.

II. Variant.

MSK-nın tərkibi 18 nəfərdən ibarət olsun. Komissianın 6 üzvü Parlamentdə çoxluq təşkil edən partiya nümayəndələri, 6 üzvü Parlamentdə azlıq təşkil edən partiya nümayəndələri, 6 üzvü isə QHT-lər tərəfindən təyin olunsun.

Vətəndaş Cəmiyyəti Uğrunda «Müstəqil Məsləhət və Yardım Mərkəzinin»Azərbaycan Respublikasında Seçki komissiyalarının formalaşması prinsiplərinin təkmilləşdirilməsinə dair

## TƏKLİFLƏR

1. Bütün səviyyələrdə olan seçki komissiyalarının yaradılması formulu dəyişdirilsin. Siyasi partiya nümayəndəliyi üstəgəl parlamentin bitərəf hissəsinin nümayəndəliyi formulunun əvəzinə siyasi partiya nümayəndəliyi üstəgəl qeyri-hökumət təşkilatlarının nümayəndələri formulu tədbiq olunsun.
2. Əgər təklif olunan dəyişikliklər müsbət həllini taparsa, bütün səviyyələrdə seçki komissiyalarının komplektləşdirilməsi üçün aşağıdakı variantlara baxıla bilər:

a) yerlərin 60 %-i proporsional olaraq bölünərək parlament çoxluğu, parlament azlığı və son parlament seçkilərində 1%-dən çox səs toplamış digər partiyalar arasında bölünsün və 40%-i isə QHT nümayəndələrinə verilsin.

b) digər varianta görə yerlər hər biri 25% olmaq şərti ilə, parlament çoxluğu, parlament azlığı, son parlament seçkilərində 1%-dən çox səs toplamış digər partiyalar və QHT-lər arasında bölünsün.

c) üçüncü variant isə paritet əsaslarla bölünmək şərti ilə yerlərin 2/3-nin son parlament seçkilərində 1%-dən çox səs toplamış bütün partiyalara, 1/3-nin isə QHT-lərə verilməsini nəzərdə tutur.

3. Seçki komissiyalarında təmsil olunmaq hüququ, fəaliyyəti demokratik təsisatların və vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş və rəhbərləri heç bir siyasi partiyada təmsil olunmayan QHT-lərə verilir.
4. Fəaliyyəti demokratik təsisatların və vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş QHT-lər bütün səviyyələrdə seçki komissiyalarına üzvlüyə namizədləri özləri müstəqil şəkildə və yaxud bir-biri ilə razılaşdırılmış şəkildə vahid siyahı üzrə irəli sürə bilərlər.
5. QHT-lərin bütün səviyyələrdə seçki komissiyalarına vahid siyahı üzrə namizəd irəli sürmək üçün məqbul forması, əlaqələndirmə funksiyasının yerinə yetirmək məqsədi təsis ediləcək QHT-lərin Birləşdirici Mərkəzi ola bilər.
6. QHT-lərin vahid siyahı üzrə namizəd irəli sürməsi demokratik prinsiplərə uyğun olmalı və QHT-lərin Birləşdirici Mərkəzi iştirakçılarının səs çoxluğu ilə təmin edilməlidir. Namizəd irəli sürülməsi prosesi şəffaflıq şəraitində, yerli QHT müşahidəçilərinin və Azərbaycanda akreditə olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə həyata keçirilməli və QHT-lərin Birləşdirici Mərkəzininin hazırladığı, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının təsdiqindən sonra qüvvəyə minmiş xüsusi təlimatlarla nizamlanmalıdır.
7. Bütün səviyyələrdə seçki komissiyalarına QHT namizədlərinin irəli sürülməsi barədə son qərar mövcud qanunvericiliyin təsbit etdiyi qaydalara müvafiq şəkildə verilir. (8)
Bu yaxınlarda 2008 – ci il prezident seçkiləri ilə əlaqədar Avropanın Venetsiya Komissiyası seçki komissiyalarının yenidən formalaşdırılmasıilə bağlı Azərbaycan tərəfi ilə yenidən danışıqlara başlamışdır. Bu danışıqlarda Venetsiya Komissiyası müxalifət partiyalarının təklifinə əsasən seçki komissiyalarının paritet əsaslarla siyasi partiyalardan formalaşdırılmasını, Azərbaycan iqtidarı isə komissiyaların siyasi partiyaların nümayəndələrindən deyil, müstəqil peşəkarlardan təşkil olunmasını təklif edir. Beynəlxalq təcrübəyə istifnadə bu təkliflərin hər ikisini məqbul saymaq olar. Lakin Azərbaycan reallığını baxımından bu təkliflərin heç biri demokratik seçkilərin keçirilməsini təmin edə bilməz.

MSK hətta paritet əsaslarla formalaşdırılsa belə hazırki siyasi partiyaların nümayəndələrindən ibarət təşkil olunmuş bu komissiyalarla demokratik seçkilər keçirmək mümkün deyil. Çünki hələ müxalifət partiyaları indikindən qat – qat güclü olduğu vaxt MSK – ya göndərdiyi nümayəndələrin əksəriyyəti öz partiyalarının qərarları və prinsiplərinə zidd olaraq protokollara imza atmaqla seçkiləri legitimləşdirmişlər. Onların bu xəyanəti isə həmin partiyaların sıravi üzvlərinin demokratik seçkilərə inamını sarsıtmışdır. Müxalifət partiyaların MSK –dakı nümayəndələrinin bu hərəkətlərinin arxasında öz şəxsi maraqlarının dayandığı heç kimə sirr deyil. Müxalifət partiyaların işqtisadi vəziyyətinin əvvəlkindən qat – qat ağır olduğu bir vaxtda bu xoşagəlməz prisidentin təkrarlanmayacağını düşünmək isə sadəlövlükdən başqa bir şey deyil.

İqtidar tərəfinin MSK - nın müstəqil peşəkarlardan təşkil olunması təklifi bir şərtlə müsbət qarşılana bilər ki, bu peşəkarlar həqiqətən peşəkar, həm də həqiqətən müstəqil olsunlar. Əgər onlar da hazırki MSK- da olan «müstəqil» üzvlər kimi iqtidardan asılı olacaqlarsa deməli bu tərkilə də demokratik seçkilər keçirmək mümkün deyil. Sual oluna bilər ki, bəs bu təklflərə real alternativlər varmı?

Fikrimizcə, ölkədə demokratik seçkilərin keçirilməsi üçün Venetsiya Komissiyasının, iqdar və müxalifət partiyalarının təklfilərindən daha optimal təkliflər irəli sürmək mümkündür. Belə təklifləri hazırda vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edən Milli QHT Forumu, Azərbaycan Avrointeqrasiya Milli İctimai Komitəsi, Vətəndaş Cəmiyyətinə Dəstək və digər koalisiyalar irəli sürə bilərlər.

Belə təkliflərdən biri «İctimai Liderlər» Birliyi Seçki Qərargahının 2005 – ci il parlament seçkiləri ərəfəsi ictimaiyyətin nümayəndələri ilə keçirdiyi böyük toplantıda səslənmişdir. Həmin toplantıda müstəqil ekspetlərin əksəriyyəti öz çıxışlarında qeyd etmişlər ki, «İctimai Liderlər» Birliyi üzvlərindən ibarət MSK təşkil olunarsa Azərbaycanda ədalətli seçkilər keçirmək mümkündür. «İctimai Liderlər» Birliyi Seçki Qərargahının rəhbəri kimi bu təklifin MSK-nın foralaşmasında ən real təkliflərdən biri hesab etməyimin ciddi əsasları var. Bunlar aşağıdakılardır:

- Birinci onu qeyd etmək lazımdır ki, nüfuzlu QHT rəhbərlərindən təşkil olunmuş «İctimai Liderlər» Birliyi üzvləri nə iqtidardan, nə də müxalifətdən iqtisadi və siyasi cəhətdən asılı deyillər;
- İkincisi bu şəxslər ictimaiyyət arasında müsbət imicə malik insanlardır ki, onların hər birinin namizədliyi bir – birinə düşmən olan hər iki qütb tərəfindən qəbulu mümkündür.
Fikrimizcə MSK – nın həqiqətən müstəqil olan, iqtidar və müxalifətdən nə iqtisadi və siyasi cəhətdən asılı olmyan nüfuzlu QHT nümayəndələrindən təşkil olunması daha məqsədəuyğundur. MSK – nın bu cür təşkili demokratik seçkilər keçirilməsi yolunda mühüm addım ola bilər. QHT nümayəndələrinin MSK-ya namizədliyini isə nüfuzlu QHT koalisiyalarının irəli sürə bilərlər. Fikrimizcə Venetsiya komissiyasının seçki komissiyaları ilə bağlı müzakirələrində bu cür alternativ təkliflərin müzakirəsi ölkədə demokratik seçkilərin keçirilməsinə yaxından kömək göstərə bilər. (9)

Alternativlərin təhlili göstərir ki, Azərbaycanda demokratik seçkilər keçirilməsi, irəli sürülmüş konstruktiv təklifləri qəbul edilməsi və beynəlxalq təcrübədə əldə olunmuş müsbət təcrübədən bəhrələnmək üçün ölkədə olan siyasi sistemin islahatlar yolu ilə demokratikləşdirilməsinə, Milli Məclisin səlahiyyətlərinin genişləndirilməsinə, iqtidar – müxalifət arasında siyasi münasibətlərin düşmənçilikdən konstruktiv məcraya yönəlməsinə və demokratik maarifçiliyin genişləndirilməsinə ciddi ehtiyac var. Avropa İttifaqı ilə imzalanmış Fəaliyyət Planında nəzərdə tutulumuş prioritetlərin həyata keçirilməsi bu məsələlərin reallaşmasına yaxından kömək göstərə bilər.

## IV. NƏTİCƏ VƏ TÖVSİYYƏLƏR

Problemin həlli üçün aşağıdakı işlərin görülməsinə ehtiyac var:

- Azərbaycan Respublikasının Avropa Şurası qarşısında vətəndaş cəmiyyəti quruculuğu və demokratik seçkilərlə bağlı götürdüyü öhdəliklərə əməl etməsi. Bu sahədə görülən işlərin obyektiv manitorinqinin təşkili;
- Demokratik islahatların davam etdirilməsi, Seçki məcəlləsinə demokratik dəyişiklərin edilməsi;
- Seçki komissiyalarının iqdidarın inhisarından azad edilməsi və yenidən təşkili;
- Ölkədə keçirilən seçkilərə beynəlxalq təşkilatların ikili standartlardan yanaşılmasına son qoyulması;
- Beynəlxalq müşahidəçilərin seçkilərin monitorinqi zamanı demokratik prinsiplərə əməl etməsi;
- Xarici dövlələrin, xüsusilə də MDB ölkələrindən olan müşahidəçilərinin seçki saxtakarlığına göz yummalarına son qoyulması;
- Dövlət məmurlarının, icra hakimiyyəti nümayəndələrinin, ordu və polisin seçkilərə qeyri – qanuni müdaxilələrinin aradan qaldırılması;
- Vətəndaş cəmiyyəti quruculucu, plüralizm və demokratik seçkilər sahəsində beynəlxalq təcrübənin öyrənilməsi;
- Vətəndaşlar arasında demokratik maarifçilik işinin genişləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi;

Demokratik seçkilərin keçirilməsinə ən çox mane olan məsələ seçki komissiyalarının «yuxarıların» göstərişi ilə formalaşdırılması və bu komissiyaların qanunlardan çox «yuxarıların» göstərişləri ilə fəaliyyət göstərməsidir. Fikrimizcə bu çatışmazlıqları demokratik islahatlar, maariflləndirmə və əhalinin həyat səviyyəsini yüksəltmək yolu ilə aradan qaldırmaq mümkündür.

Azərbaycanda keçirilən prezident seçkilərində müxalifətin vahid namizədi ideyası irəli sürülmüş və seçkilərdən sonra bu ideyanın həyata keçməməsinə görə partiyalar bir – birini ittiham etmişlər. Fikrimizcə qarşılıqlı ittihamlara səbəb olan bu ideyaya alternativ ***demokratik seçki qanunun qəbulu və seçkilər üçün demokratik mühütün yaradılması uğrunda birgə mübarizə aparmaq və buna nail olmaqdan ibarətdir.***

Müasir dövrdə siyasi partiyaların əsas vəzifəsi « müxalifətin vahid namizədi» kimi hələlik obyektiv və subyektiv səbəblərdən həyata keçirilməsi mümkün olmayan fikirlərlə özünü yormaq, bir – birinə qarşı müxtəlif ittihamlarla çıxış etmək deyil, Seçki Məcəlləsinin demokratikliyini təmin etmək və demokratik seçkilər üçün normal şəraitin yaradılması istiqamətində fəaliyyət göstərməkdən ibarət olmalıdır. Demokratik seçkilərin keçirilməsi təmin olunarsa namizədin bir və ya bir neçə olmasının elə bir fərqi olmaz.

Yekun olaraq qeyd etmək lazımdır ki, ölkədə fəaliyyət göstərən ictimai, siyasi təşkilatlar vətəndaş cəmiyyəti quruculuğunun genişləndirilməsi və demokratiyanın gücləndirilməsi prosesində fəal iştirak etmək arzusunda olduqlarını dəfələrlə bəyan etmişlər. Fikrimizcə onların bu xoş niyyətlərinin həyata keçirilməsi üçün münbit şəraitin yaradılması və vətəndaşların fəallığının artırılması əsas vəzifələrdən biridir.

## MƏNBƏLƏR


1. Seçki. Jurnalistlərin yaddaş kitabçası. Bakı, 2005
2.Seçki Monitorinq Mərkəzi Azərbaycan Respublikası Milli Məclisinə, 6 noyabr 2005-ci ildə keçirilən seçkilərin monitorinqinin nəticələrinə dair yekun hesabatı. Bakı 2005;
3. Yeni Seçki Məcəlləsinin müzakirəsi. Azərbaycan mətbuatının monitorinqi (26 noyabr 2002 - fevral 2003) «Vətəndaş Cəmiyyəti Uğrunda» Müstəqil Məsləhət və Yardım Mərkəzi. Bülleten № 13, Bakı 2003;
4. Xarici ölkələrdə seçki hüququ və seçki sistenmləri. Bakı 2001;
5. Yerli özünüidarə: Avropa ölkələrinin təcrübəsi. Bakı, Çaşıoğlu, 2003.
6. İqtidar – müxalifət münasibətlərini necə tənzimləməli? «525-ci qəzet» 01.04.04
7. Vətəndaş Cəmiyyəti Uğrunda «Müstəqil Məsləhət və Yardım Mərkəzinin»bülleteni.
8. Venetsiya komissiyasına MSK – nın təşkili ilə bağlı alternativ təklif. «525-ci qəzet», aprel 2007


## BİBLOQRAFİYA


1.Azərbaycan Respublikası Konstitusiyası. Bakı 1996;
2. Podqotovoka i provedenie izbratelğnıx kampaniy. Mejdunarodnıy Respublikanskiy İnstitut. Moskva 1999;
3.Demokratiyanın bərqərar olması və möhkəmləndirilməsində seçkilərin rolu. Bakı 1998;
4. Seçki texnologiyaları. Bakı 1998;
5.Haqları necə qorumalı. Bakı 1999;
6. Seçkiqabağı kampaniya üçün soraq kitabçası. Bakı 2000;
7. İnsan haqları və seçkilər. Bakı 2000;
8. Parlament seçkiləri. Demokratik Seçkimlərə Yardım Mərkəzinin bülleteni. Bakı 2000;
9. Azərbaycanda parlament seçkiləri. «Vətəndaş Cəmiyyəti Uğrunda» Müstəqil Məsləhət və Yardım Mərkəzinin bülleteni. Bakı 2001;
10. Azərbaycanda seçkiərin monitorinqi: təcrübə və perspektivlər. Bakı 2001;
11. Avropa Konvensiyasında müəyyən olunmuş hüquq və azadlıqların təmini. Bakı 2002;
12. Seçkilər və kütləvi informasiya vasitələri. «Vətəndaş Cəmiyyəti Uğrunda» Müstəqil Məsləhət və Yardım Mərkəzinin bülleteni. Bakı 2002;
13. Yerli özünüidarə: Avropa ölkələrinin təcrübəsi. Bakı, Çaşıoğlu, 2003;
14. Yeni Seçki Məcəlləsinin müzakirəsi. Azərbaycan mətbuatının monitorinqi (15 fevral – 23 aprel 2003) «Vətəndaş Cəmiyyəti Uğrunda» Müstəqil Məsləhət və Yardım Mərkəzi. , Bülleten № 14, Bakı 2003;
15. Seçkilərin kütləvi informasiya vasitələrində işıqlandırılması. Normalar, Prinsiplər, Standartlar. Bakı 2003;
16. Azərbaycan Respublikasında keçirilmiş 15 oktyabr 2003 – cü il prezident seçkiləri ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında keçirilmiş Rəy Sorğuları.Bakı, «Elba», 2004;
17. Nigel Ashaord «Azad cəmiyyətin prinsipləri» Bakı 2003;
18. Robert Dahl «Demokratiya haqqında» Bakı 2004;

19. Adam Seliqman « Vətəndaş cəmiyyəti ideyası» Bakı 2005;
20. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. Bakı 2005;
21. ATƏT SEÇKİ MƏCƏLLƏSİ LAYİHƏSİNƏ MƏNFİ RƏY VERDİ «Komissiyaların bir siyasi qüvvənin nəzarətinə keçməsi yolverilməzdir», «Azadlıq» qəz., 14 – 16 dekabr 2002 – ci il;
22. Müxalifətin Seçki Məcəlləsi ilə bağlı təklifləri.« Hürriyyət» qəz., 20 dek., 2002 – ci il;
23. «Azad Seçki» forumunun Birgə bəyannaməsi « Azadlıq» qəz., 27 dek., 2002 – ci il;
24. Seçki məcəlləsi və bələdiyyə seçkilərində yarana biləcək problemlər. Bakı 2004

## ƏLAVƏLƏR

Beynəlxalq tələblərə cavab verən ədalətli və şəffaf seçkilərin keçirilməsinə, ölkədə demokratiyanın gücləndirilməsinə mane olan amillərdən biri iqtidarla müxalifət arasında dialoqun baş tutmamasıdır. İqtidar – müxaliəfət dialoqundan çox danışılsa da, jurnalist Elmar Hüseynovun dəfn günündəki dialoqu çıxmaq şərti ilə hələ ki, bu sahdə heç bir irəlləyiş əldə olunmayıb. Azərbaycan Respublikasının prezidentinin tapşırığı ilə jurnalist Elmar Hüseynovun dəfn günü, yəni 2005 – ci il martın 4 – də Beynəlxalq Mətbuat Mərkəzinin böyük zalında saat 11-30-da dialoq baş tutdu.

Hər iki tərəf baş vermiş hadisədən siyasi məqsədlər üçün istifadənin yol verilməz olduğunu qəbul etdi. Lakin çox təəssüf ki, Elmar Hüseynovun dəfnindən sonra iqtidar müxalifət arasında dialoq davam etmədi və hərə öz qərargahına çəkilərək gözləmə mövqeyinə üstünlük verdi. Sual oluna bilər ki, hər iki tərəf nəyi gözləyir? Bəlkə yenə də hansısa bir faciənin baş verməsini və yenə də tələsik dialoqa başlamağı? Fikrimizcə heç bir tərəf ölkə daxilində bu cür xoşagəlməz hadisənin baş verməsini istəmir. Bəs onda nəyə görə problemlərin çoxluğundan əziyyət çəkən bir ölkənin vətəndaşları bir – biri ilə danışa bilmir? Bu problemin həllinə mane olan nədir? Nəyə görə bir vətənin, bir millətin övladları bir – birinə düşmən münasibət bəsləyirlər?

Azərbaycanda sivil, hüquqi aktlara söykənən iqtidar – müxalifət münasibətlərinin yarana bilməməsinin səbəbləri fikrimizcə aşağıdakılardır:

- ölkədə keçid dövrünün uzanması, köhnə sistemdən yenisinə keçidin formaca baş versə də məzmunca baş verməməsi;
- müstəqil qanunverici, icraedici və məhkəmə hakimiyyətinin olmaması;
- demokratik islahatların həyata keçirilməməsi, qanunların işləməməsi;
- korrupsiya və rüşvət hallarının geniş yayılması;
- işsizliyin və əhalinin kasıblıq həddinin yüksək olması;
- normal, demokratik seçıkilərin keçirilməsinin mümkün olmaması, seçkilərin nəticələrinin saxtalaşdırılması;
- vətəndaşları siyasi əqidəsinə görə təqib olunması, onların işdən çıxarılması, saxta ittihamlarla həbs olunması;
- müstəqil telekanalın olmaması;
- milli həmrəyliyə mane olan regionçuluq, yerlibazlıq, valyuntarist siyasətə üstünlük verilməsi və s.

Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında Azərbaycanın bu qurum qarşısnda götürdüyü öhdəlikləri yerinə yetirməsi məsələsinin müzakirə olunması və bu ilin axırna qədər mövcud problemlərin həlli üçün vaxt verilməsi fikrimizcə müsbət qiymətləndirilməlidir. Əgər bu müddətdə problemilərin həlli istiqamətində müsbət irəlləyişlər olarsa, 2008-ci il prezident seçkilərinin əvvəlki seçkilərə nisbətən demokratik keçəcəyinə ümüd etmək olar. Fikrmizcə mövcud problemlərin həlli istiqamətində real işlər həyata keçirilməsi ölkədə demokratiyanın gücləndirilməsinə, vətəndaş cəmiyyəti quruculuğunun inkişafına müsbət təsir göstərə bilər.